*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2019, № 1*
*Səhifə: 46-52* *ISSN: 2663-2926*

**UOT:** 821.512.162.09 Gülnar Rzayeva*

# AMERİKA TƏNQİDİ VƏ ƏDƏBİYYATŞÜNASLIĞI KERUAK YARADICILIĞI HAQQINDA

**Açar sözlər:** Keruak, tənqid, cəmiyyət, ədəbiyyatşünaslıq, bitnik, məqalə
**Key words:** Kerouac, criticism, society, literary studies, beatnik, article
**Ключевые слова:** Керуак, критика, общество, литературоведение, битник, статья

Bəşər cəmiyyətinin mədəniyyətinin inkişafı çox zaman onun aparıcı prinsiplərini inkar edən, ideologiyası ilə razılaşmayan, onun bünövrəsini sarsıtmağa can atanların meyillərin mövcudluğu, bəzən gizli, bəzən də açıq şəkildə rəsmi hakim mədəniyyətə qarşı mübarizə aparan, böhran məqamlarında onunla ölüm-dirim mübarizəsinə girən meyillərin aramsız şəkildə yaranması ilə müəyyən olunur. Cəmiyyətdə olduğu kimi onun mədəniyyətində də daim təbəqələşmə prosesi baş verir, yəni hər yeni yaranan sosial təbəqənin özünəməxsus mədəni ideologiyası formalaşır. Onu da qeyd etmək lazımdır ki, bu proses özünəməxsus şəkildə mədəniyyətin bütün tərkib hissələrində, o cümlədən humanitar fikirdə, incəsənətdə və ədəbiyyatda da özünü büruzə verir. Müasir dövrdə millətlərin, sosial təbəqələrin arasında mövcud olan ziddiyyətləri uğurla aradan qaldırmaq üçün ən azı yaxın keçmişdə – XX əsrdə mədəni-mənəvi dəyərlər sahəsində özlərini büruzə verən analoji halları, böhran durumlarını ətraflı şəkildə araşdırmaq, "tarixin dərsləri"ni bütün mürəkkəbliyi və ziddiyyətləri ilə nəzərə almaq, onlardan lazımi nəticə çıxarmaq tələb olunur. İkinci Dünya müharibəsindən sonra Amerika Birləşmiş Ştatlarında gəncliyin o dövrdə ölkənin ideoloji əsasını təşkil edən rəsmi, yaşlı nəsil tərəfindən faktiki olaraq qeydsiz-şərtsiz qəbul olunmuş mədəni-mənəvi dəyərlərə qarşı, XX əsrin tarixinə "kontrkultura" kimi daxil olmuş üsyankar çıxışlarının ətraflı şəkildə təhlil olunması və dəyərləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan ideoloji-estetik fenomen kimi kontrkultura bilavasitə İkinci dünya müharibəsindən sonra bu və ya digər şəkildə XX əsrin əvvəllərindən başlayaraq Amerika ədəbiyyatının nümayəndələrinin yaradıcılığında özünü büruzə vermişdir. İkinci Dünya müharibəsindən sonrakı dövrdə Folkner, Heminquey, Steynbek, Uaylder kimi qüdrətli sənətkarlar yaşayıb-yaradırdılar. Onlar bu zaman kəsiyində yazdıqları əsərlərdə dövrün ən kəskin, ən ziddiyyətli problemlərinə toxunur, onlara öz şəxsi münasibətlərini ifadə edirdilər. Təbii ki, bu cür əsərlər oxucuları cəmiyyətdə baş verən problemlərə ayıq başla, açıq gözlə baxmağa sövq edirdi. Ədəbi-bədii fikirdə konformizmin bərqərar olduğu bir şəraitdə C.Keruakın, habelə onunla eyni ideoloji mövqedən çıxış edən həmkarları Ginsberq, Ferlingetti, Holms bitnik yaşam və düşüncə tərzini ədəbiyyatda təmsil edən digər sənətkarların yaradıcılıqları oxucular tərəfindən mövcud quruluşa və Amerika gerçəkliyinə qarşı sərt etiraz kimi qəbul olunmuşdu. Bitniklər, onların əhvali-ruhiyyəsini və düşüncə tərzini bədii ədəbiyyatda ifadə edən yazıçılar hər bir insanın mənən və ruhən azad olmasına, hər bir şəxsiyyətin azadlığına hörmət edilməsinə çağırırdılar; onlar üçün hər br fərdin özünəməxsusluğu ən böyük dəyər hesab olunurdu və bütün təsisatların əsas vəzifəsi şəxsiyyətin xarakterinə hörmətlə yanaşmaqla bağlıdır. Keruak və onun bitnik həmkarları bunu gözəl başa düşürdülər və incə vasitələrlə fərdi düşüncə və dünya-duyum özünəməxsusluğundan məhrum etməyə can atan konformist ədəbiyyata qarşı mübarizə aparırdılar. Lakin onlar təkcə kütləvi ədəbiyyatla və mədəniyyətin digər təzahürlərinə qarşı çıxış

* Azərbaycan Universiteti, doktorant. E-mail: gsadiqova14@gmail.com

etməklə kifayətlənmirdiər. Onlar eyni zamanda ənənəvi-"akademik", elitar-formalist prinsiplər əsasında yaradılmış ədəbi-bədii nümunələrə qarşı da çıxış edir, onların bədii-estetik dəyər daşıyıcıları olmalarını təkzib edirdilər.

Bu baxımdan "Beat generation"ı təmsil edən sənətkarların, xüsusilə C.Keruakın yaradıcılığı İkinci Dünya müharibəsindən sonra Amerika ədəbiyyatında bədii-estetik paradiqmanın dəyişməsinə səbəb olmuşdur.

Bədii-estetik fikir tarixi sübut edir ki, bir qayda olaraq yeni üslubun yaradıcıları, müasirləri və sonra gələn sənətkarlar nəsli tərəfindən çox vaxt səhv başa düşülür və yanlış qiymətləndirilir. Bu problem ziddiyyətli xarakterə malik Cek Keruakın yaradıcılığını dəyərləndirmək baxımından da diqqəti cəlb edir. Onun üslubunda son dərəcə çoxsaylı "gözlənilməz", ədəbi-bədii praktikada təsadüf olunmayan elementlər var idi ki, tənqidçilər buna necə yanaşacaqlarını bilmirdilər.

**C. Keruak və "bitniklər" ədəbiyyatşünaslıqda**

İrihəcmli "Şəhərcik və şəhər" romanı Keruakın işıq üzü görmüş ilk əsəridir. Əsər nə ideya məzmunu, nə də forması baxımından hələ bitnik ədəbiyyatına aid deyildi və o dövrdə nəşr olunan kütləvi ədəbiyyat nümunələrindən nə bədii məziyyətləri, nə də məzmunu ilə fərqlənmirdi. Ədəbi tənqidin nümayəndələri Keruakın yaradıcılığına yalnız onun "Yolda" romanı çap olunandan sonra sözün əsl mənasında diqqət yetirdilər. Zaman keçdikcə bu romanla bağlı tədqiqatların sayı artdı və əsər müxtəlif yönümlərdən təhlil olundu. Düzdür, bir sıra tənqidçilər və ədəbiyyatşünaslar onun bitnikliyə həsr olunmuş əsərlərinə hələ onlar işıq üzü görməzdən əvvəl müraciət etmişdilər. Məsələn, görkəmli yazıçı M. Kauli "Yolda" romanının bədii xüsusiyyətləri haqqında yüksək fikir söyləmişdi. Qeyd etmək lazımdır ki, Məhz Kaulinin müsbət rəyi nəticəsində "Yolda" əsəri "Vaykinq" nəşriyyatı tərəfindən çap olundu. Lakin bununla yanaşı, "Yolda" romanına münasibət heç də birmənalı deyildi. Əsəri o dövrün Amerika nəsrinin nailiyyəti hesab edənlərlə yanaşı, onu kəskin tənqid atəşinə tutanlar da az deyildi.

Belə ki, C.Milsteyn "Nyu-York Tayms" qəzetində çap etdirdiyi resenziyasında Keruakın "Yolda" romanını Heminqueyin "Fiyesta" romanı ilə müqayisə edərək onun işıq üzü görməsini tarixi hadisə hesab edir. Bu yazıda müəllif əsərin ideya məzmunu haqqında xeyli müsbət fikir söyləmişdir. O, burada Keruakın Amerika gerçəkliyinə tamamilə yeni görmə bucağından nəzər saldığını xüsusilə vurğulamışdı [1].

"Yeni mühafizəkarlığ"ın aparıcı nümayəndələrindən biri olan Norman Podhores "Cahil bohemlər" adlı məqaləsində bitniklərin bütün günahlarını sadalayır. Lakin bununla belə onun tənqidinin əsas hədəfi C.Keruakdır. O. yazıçını "cahil populizm"də, sadə insanları vəsf etməkdə, primitivizmdə və bayağılıqda, yazıda ədəbi dilin normalarına riayət etməməkdə günahlandırırdı [2, s.301].

O dövrdə Keruakın yaradıcılığı ilə bağlı yazıların arasında Uoren Tolmenin "Keruakın səsi" məqaləsi özünün obyektivliyi, dərin analitik keyfiyyətləri ilə diqqəti cəlb edir. Bu məqalədə Keruak nəsrinin bir sıra üslubi xüsusiyyətləri təhlil olunmuşdur. Müəllif ətraflı təhlil əsasında sübuta yetirir ki, əsərin ekspressiv deyim tərzi onun ideya məzmununun açıqlanmasında mühüm rol oynayır [3, s.56].

T. Parkinsonun 1961-ci ildə tərtib etdyi "Bitniklər haqqında iş" kitabına bitnik sənətkarlarının əsərləri ilə yanaşı, bu hərəkatın erkən çağlarında və onun ədəbiyyatının təşəkkül dövründə əsərlərindən nümunələr və müxtəlif mətbu orqanlarda çap olunmuş məqalələr və resenziyalar daxil edilmişdir [3, s.43].

1964-cü ildə F.Fayedin amerikan ədəbiyyatında sərgərdanlıq mövzusuna həsr olunmuş monoqrafiyası çap olunmuşdur. Bu tədqiqatda müəllif üç amerikalı sənətkarın – C.Londonun, C.Dos-Pasosun və C.Keruakın yaradıcılıqlarında sərgərdanlıq mövzusunu işıqlandırmışdır. Monoqrafiyanın müəllifi üç amerikalı sənətkarın yaradıcılığında ölkənin gerçəkliyi üçün həqiqi sosial problemə çevrilmiş sərgərdanlıq fenomenini və onun müxtəlif yaradıcılıq prinsiplərindən çıxış edən sənətkarların yaradıcılıqlarında təcəssüm xüsusiyyətlərini araşdırır. Monoqrafiyanın müəllifi

xüsusilə qeyd edir ki, Keruakın əksər qəhrəmanlarının sərgərdanlığı onların Amerika gerçəkliyinə qarşı etirazlarının nəticəsidir. Bu sərgərdanlıq kitabın müəllifinin fikrincə real ictimai hadisə olmaqla yanaşı, həm də simvolik səciyyə daşıyır. Bitniklərin sərgədanlığı cəmiyyətdə hökm sürən mənəvi düşkünlüyə qarşı etiraz formasıdır; bitniklər yalnız bu yolla istədikləri cəmiyyəti qurmaq ümidindədirlər. Bitniklər ona görə əllərini ağdan qaraya vurmaq istəmirlər ki, onlar "ömürlük maddi nemətlərin girovuna çevrilməkdən" ehtiyat edirlər [4, s.121].

Hələ C.Keruakın sağlığında, 1967-ci ildə E.Çarter tərəfindən müəllifin əsərlərinin biblioqrafiyası nəşr olunmuşdu. Burada yazıçının əsərlərinin dolğun siyahısı verilməklə yanaşı, həmçinin onun həyat yolu və yaradıcılığı haqqında ətraflı oçerk də daxil edilmişdir. Bu kitab bir də ona görə diqqətəlayiqdir ki, Keruakın özü biblioqrafiyanı nəzərdən keçirmiş, faktiki olaraq onu redaktə etmişdir [5].

1967-ci ildə Brüs Kukun məşhur "Bitniklər nəsli" kitabı işıq üzü gördü. Kitabın müəllifi bitnikliyi ədəbi fenomen kimi təhlil etməyə cəhd edir. Bu monoqrafiyanın üstün cəhətlərindən biri də onunla bağlıdır ki, müəllif bitnik sənətkarları əsərlərində təsvir olunan hadisələri birbaşa onların həyat yolu ilə, bioqrafiyaları ilə əlaqələndirir və ümumi sosial problemləri konkret fərdin həyat faktları ilə əsaslandırır [6].

1976-cı ildə C.Keruakın yaradıcılığı ilə bağlı eyni zamanda iki monoqrafiya işıq üzü görür. Onlardan birincisi R.Hipkiyesin "Cek Keruak. Yeni romantizmin peyğəmbəri" əsəridir. Bu əsərdən də məlum olur ki, onun müəllifi Keruakı romantik ənənəyə aid edir. Əlbəttə ki, Keruakın əsərlərində yazıçının özünün və onun qəhrəmanlarının həyat tərzində, dünyaya münasibətdə romantik motivlərə təsadüf olunur. Lakin eyni zamanda yazıçının əsərlərində, o cümlədən "Yolda" romanında elə cəhətlər mövcuddur ki, onları romantizmin fəlsəfəsi və poetikası ilə izah etmək mümkün deyil [7].

İkinci monoqrafiya C.Taytelin "Çılpaq mələklər: bitniklər nəslininn həyatı və yaradıcılığı" əsəridir. Kitabda üç yazıçının yaradıcılığı dövrün amerikan gerçəkliyinin işığında ətraflı şəkildə təhlil olunur; müəllif Keruakla və Ginsberqlə yanaşı, U.S.Berrouzun da əsərlərini tədqiqata cəlb edir və onu da bitnik sənətkar hesab edir. Əlbəttə ki, Berrouz dostluq telləri ilə həm Keruakla, həm də Ginsberqlə bağlı idi. Lakin onu da qeyd etmək lazımdır ki, Berrouz bəzi hallarda təkcə bu iki sənətkarın deyil, ümumiyyətlə bitnik nəslinə mənsub olan yazıçıların müəllimi qismində çıxış edirdi. Lakin bununla belə Berrouzun nəsri Keruakın nəsrindən, poeziyası da Ginsberqin poeziyasından köklü şəkildə fərqlənirdi. Heç də təsadüfi deyildir ki, müsahibələrinin birində Keruak Berrouzun yaradıcılığını mənfi dəyərləndirmiş, xüsusilə onun əsərlərində bol-bol təsadüf olunan mexaniki montajı və kollajı kəskin tənqid atəşinə tutmuşdu [8, s.167].

Lakin bununla belə bu monoqrafiyada bitniklər ədəbiyyatının genezisi, inkişafı və böhrana uğrayıb bədii fikir səhnəsindən çəkilməsi kifayət qədər ətraflı və düşünülmüş faktlar əsasında izlənmişdir. Monoqrafiyanın müəllifi Keruakın yaradıcılığının spontan yazı prinsipi əsasında qurulduğunu iddia edir. Heç də təsadüfi deyildir ki, monoqrafiyanın uyğun fəsli "Cek Keruak: spontanlığın vəsfçisi" adlanır. Məhz bu nəzər nöqtəsindən tədqiqatçı bitnik sənətkarın yaradıcılığını romantizmlə, xüsusilə Uolt Uitmenin əsərləri ilə əlaqələndirməyə cəhd göstərir. Şübhəsiz ki, Keruakın və Ginsberqin yaradıcılıqlarının təhlili prosesində sərgərdanlıq mövzusundan yan keçmək mümkün deyildi. Monoqrafiyada C.Taytelin irəli sürdüyü müddəalar Fayedin tədqiqatında bu problemlə bağlı söylədiyi fikirlərlə birbaşa səsləşir.

Taytel göstərir ki, Keruakın əsərlərində tez-tez özünü büruzə verən və faktiki olaraq onun yaradıcılığının aparıcı poetik prinsipinə çevrilmiş, onun ifadə tərzinin əsasını təşkil edən spontantlıq faktiki olaraq romantik sənətkarların və romantizmin nəzəriyyəçilərin incəsənətin təbiiliyi haqqında müddəasının ifrat həddə çatdırılması ilə əlaqələndirilir. Taytel misal qismində S. Kolricin "Kubla Khana" əsərinin adını çəkir və iddia edir ki, guya romantik sənətkar öz əsərini tiryəkin təsiri altında yaratmışdır və əsərin bütün poetik məziyyətləri S. Kolricin böyük istedad sahibi olması ilə yox, onun yaradıcılıq prosesində tiryəkdən geniş istifadə etməsi ilə bağlıdır. Bir növ bu müddəanın

davamı kimi Taytel Keruakın əsas əsərlərini "spontan nəsr" xüsusiyyətlərinin təcəssümü baxımından təhlil edir və "Kodinin qarabasmaları" romanı, "spontan nəsr"in ən mükəmməl nümunəsi kimi dəyərləndirir. O belə hesab edir ki, Keruakın məhz bu əsərində eyhamlar çoxsaylı olmaqla yanaşı, həmçinin rəngarəngdir. Tədqiqatçı bu baxımdan Keruakın yuxarıda adıçəkilən romanını C.Coysun "Uliss" əsəri ilə müqayisə edir, həmçinin bu romanla H.Mellvilin, H.D.Toronun, U.Uitmenin, həmçinin fransız yazıçısı F.L.Selinin əsərləri arasında paralellər aparır. Taytelin Keruakın yaradıcılığını təkcə müxtəlif dövrlərdə və müxtəlif sənətkarlar tərəfindən yaradılmış ədəbi-nümunələrlə deyil, digər incəsənət növləri ilə müqayisə edir. Bu baxımdan "Kodinin qarabasmaları" romanının Uorholun filmləri və xüsusilə o dövrdə dəbdə olan caz improvizasiyaları ilə müqayisə edir. Bununla bağlı Taytel yazır: "Bu bir növ gündəlik azad formada tipli yazıdır. Bu əsərdə bilərəkdən gerçəkliklə təxəyyül, nəsrlə nəzm arasında fərqlər bununla bağlı pozulur. Əsərdə bu fərqlərin qabardılması təxəyyülü stimullaşdırmaq məqsədi güdür" [8, s.113].

1978-ci ildə sənətkar dünyasını dəyişəndən sonra kollektiv tərəfindən hazırlanmış "Cek haqqında kitab: Cek Keruakın şifahi bioqrafiyası" kitabı işıq üzü gördü. Əsərdə C. Keruakın dostlarının və tanışlarının onunla bağlı xatirələri öz əksini tapmışdır. Belə ki, məşhur publisistlər B.Qifford və L.Lii sənətkarla dostluq etmiş, onunla yaxın əlaqədə olmuş insanlardan müsahibələr almışdır. Keruakın şəxsiyyətini onu canlandıran ştrixlərlə təsvir etmək cəhdi həm də müəllifin yaradıcılığına da yeni nəzər nöqtəsindən yanaşmağa imkan verir. Bununla yanaşı müəllif Keruakın yaxınları tərəfindən yaradılmış canlı, dinamik portreti kontekstində onun yaradıcılığını hərtərəfli şəkildə təhlil edir [9].

1979-cu ildə Keruakın D.Maknelli tərəfindən yazılmış digər bir bioqrafiyası – "Tənha mələk: Cek Keruak, bitniklər nəsli və Amerika" işıq üzü gördü. Bu tədqiqatda müəllif sənətkarın həyat yolunun kontekstində onun bir sıra əsərlərinin, o cümlədən "Yolda" romanının genezisini üzə çıxarmağa cəhd etmişdir. Bundan əlavə tədqiqatın müəllifi Keruakın ruhi-mənəvi təkamülünün əsas mərhələlərini işıqlandırmış, onun buddizmə münasibəti kontekstində keçirtdiyi ruhi böhranları ətraflı şəkildə təhlil etmişdir. D. Maknellinin əsərində Keruakın ömrünü son illərinin təsviri onun bu dövrdə yaratdığı əsərlərinin ətraflı təhlili kontekstində oxuculara təqdim olunur [10].

Sadə dildə danışmağa üstünlük verən müəllif Avropa poeziyasından fərqli olaraq, buddizm sutraları misra və dilin həddindən artıq bər-bəzəkli və mürəkkəb struktura, anlaşıqlığa və paradoksal şəkildə qısa, lakonik ifadə olunan düşüncəyə malik olmasını ön plana çıxarırdı. Məhz buna görə də Keruak şeirlərində fəlsəfəyə, dəruni düşüncəyə, şüurlu dərketməyə önəm verirdi. Mükəmməlliyə nail olmaq əvəzinə, Keruak onun məğzini, məqsədini güdürdü. Allen Ginsberq öz xatirələrində qeyd edirdi ki, "Keruak spontan düşüncəni, idrakı, həmçinin yapon, çin və tibet poeziyasından əxz etmişdir Onlar düşüncənin müdriklik üçün bələdçi olduğu kalliqrafiya, hayku, Tao, Tibet düşüncə formaları, Zen və Tibet Buddizminin bütöv tədris praktikası ilə əlaqədar Keruakın "İlk düşüncə, ən yaxşı düşüncədir" estetikasını qəbul etmirdilər. Nizam-intizam dəfələrlə nəzərdən keçirilən vərəqdə deyil, ilk öncə düşüncədədir" [10, s.502-503].

**C. Keruak yaradıcılığında Şərq fəlsəfəsi**

Keruakın ən məşhur əsəri sayılan "Yolda" romanı həyat, kainat və Tanrı haqqında bitməz-tükənməz, mütəmadi axtarışı, götür-qoyu, dərin düşüncəni aydın surətdə əks etdirirdi. Bundan başqa şərq fəlsəfəsi Keruakda maraq oyadır, xüsusilə Zen Buddizmi onun həyatında böyük əhəmiyyət kəsb edir. Allen Ginsberqin xatırlatdığı kimi "Keruak Buddizm və Şekspir barəsində dərin biliklərə malik idi. Xüsusilə sonrakı illərdə Keruak Şekspiri daha çox oxuyardı" [11, s.124].

Onun opponentlərindən biri şair və tənqidçi Kennet Reksrot idi. O, 1947-ci ildə yaranan avanqard yazıçılar qrupu olan San Fransisko Renessansının nümayəndəsi idi. Reksrot Keruakın poeziyasının gerçəkliyinə adekvat hesab etmirdi, çünki onun fikrincə, Keruakın əsərləri əsl amerikan mədəniyyətinin dəyərlərinə yad olan qaradərililərin həyatı və caz musiqisi kimi fenomenləri ehtiva edirdi. Reksrot "Ahəngsiz və ədəbsiz" ("Discordant and Cool") adlı məqaləsində yazır: "Next he gave us his ideas about jazz and Negroes, two subjects about which he knew less

than nothing; in fact he knew them in reverse. In this reader's opinion, his opinions about Negroes are shared only by members of the Ku Klux Klan. Jazz, he seems to believe, is throbbing drums and screaming horns, pandemonium in the jungle night over a pot of missionary fricassee" [12, s.247]. ("Sonra o, bizə caz və zəncilər haqqında fikirlərini söylədi. Bu onun bildiyi iki mövzu idi; əslində onları da tərsinə bilirdi. Oxucuya görə, Keruakın zəncilər barəsində söylədiyi fikirlər yalnız Ku Klaks Klanın üzvləri arasında paylaşılır. Onun başa düşdüyü caz təbil və saksafon çalmaq, gecə vaxtı cəngəllikdə frikase qazanı üstündə xaosdur." (G.R))

O həmçinin Keruakın əsərlərində buddizm haqqındakı fikirləri ilə razılaşmır, zərərli vərdişlərini və onun barəsində yazdıqlarını tənqid edir. "İndi bu şeirlər kitabında o eyni nəticələri verən buddizmə və dopinqə qayıdır... Cənab Keruakın Buddası bitnik məkanının qaranlıq tinində təhlükəli şəkildə qızaran və hiddətlə baxan və sadəcə olaraq huşunu itirmiş pozğun balaca qızları məftun edən ucuz büxur alışqanıdır." [12, s.247]

O, öz "Qata" ("Gatha") poemasında səhv anlamadan söhbət açır:

| | |
|---|---|
| And nobody knows | Və heç kim bilmir |
| what to do | neynəsin |
| with my woodshed | mənim |
| blues. | bluz təcrübəmlə. |
| Goodbye, Rexroth | Hələlik, Reksrot |
| until another time. | başqa bir vaxta qədər. |
| [12, s.249] | (G.R) |

Ancaq Keruakın yazdığı mövzular və onun ilham aldığı buddist mətnlər haqqında tənqidçilər əsl həqiqətin nədən ibarət olduğunu duya bilmirdilər.

"Keruak buddizm haqqında geniş bilgiyə malik idi və ruhda mövcud olan buddizmin başlıca ehkamları barədə yazırdı, ancaq onu tənqid edənlərin əksəriyyəti bununla tanış deyildi. Belə ki, o Prajnaparamita Sutra, Almaz Sutra, yaxud Lankavatara Sutradan sitat gətirəndə yəqin ki, bir çox tənqidçilər düşünürdü ki, Keruak yersiz sözlərdən istifadə edir, ancaq onlar onun çox qədim və məşhur mətnlərə istinad etdiklərini başa düşmürdülər" [12, s.274-275].

Elmin məntiqi və metodologiyası problemləri ilə məşğul olan məşhur amerikalı alim T. Kun "Elmi inqilabların strukturu" (The structure of scientific revolutions) kitabında göstərirdi: "Paradiqma deyəndə mən müəyyən müddət ərzində elmi topluma problemlərin qoyuluşunun və həllinin modelini verən, hamı tərəfindən qəbul olunmuş elmi nailiyyətləri nəzərdə tuturam" [13, s.11]. Kunun fikrincə, mövcud "elmi nailiyyətlər" öz tarixi vəzifəsini yerinə yetirə bilməyəndə, yəni elmi toplumu problemləri düzgün ortaya qoymaq və həll etmək imkanından məhrum edəndə elmdə "inqilab" baş verir və paradiqma dəyişir. Bu qanunauyğunluq özünəməxsus şəkildə incəsənətdə. o cümlədən ədəbi-bədii fikirdə öz əksini tapır. Belə ki, Keruakın "Yolda" əsəri öz ideya məzmunu, strukturu və deyim tərzi ilə ədəbiyyata elə dəyişikliklər gətirmişdi ki, bu romandan sonra Amerika və müəyyən mənada dünya ədəbiyyatında əvvəlki kimi yazmaq qeyri-mümkün olmuşdu, yaxud T.Kunun təbirincə desək, bədii-estetik paradiqmanın dəyişməsinə ehtiyac meydana gəlmişdi. A.Ginsberqin "Fəryad" (1956) və xüsusilə C.Keruakın "Yolda" əsərləri ədəbi-bədii fikirdə, müəyyən mənada isə bütün incəsənət növlərində paradiqmanın tədricən dəyişməsinə, yəni gerçəkliyə əvvəlki münasibətdən çıxış edib onun əvvəlki şəkildə təcəssüm olunmasının qeyri-mümkünlüyünü üzə çıxartdılar. Bu isə ədəbi yaradıcılığın bütün komponentlərinə – ideyasına, məzmununa, strukturuna, poetik xüsusiyyətlərinə öz təsirini göstərdi. Bu baxımdan belə qənaətə gəlmək olar ki, tədqiqatçıların müəllif yaradıcılığının inkişafına, fenomenin özünün araşdırılmasına və bədii yaradıcılıq prosesinin müasir Qərb mədəniyyət məktəblərinin kontekstində öyrənilməsi ədəbiyyatşünaslıq elminə də öz töhfəsini verdi. Beləliklə, bir dahi yalnız bir mədəniyyət tarixinin hansı isə bir

prosesində deyil, konkret bir insan, şəxsiyyət kimi araşdırılır, tədqiqatçılar onun simasında dahiliyin xüsusiyyətini üzə çıxartmağa çalışırlar [14, s.15].

Nəticə olaraq qeyd etmək lazımdır ki, Keruakın və onun həmkarlarının XX əsrin ikinci yarısında ədəbi-bədii söz sənəti sahəsində və ədəbiyyatın ideya məzmununda gətirdikləri yeniliklər o dövrün çərçivəsində qalmadı, bir çox cəhətdən ABŞ-ın sərhədlərini aşaraq bütün dünya mədəniyyətinə və ədəbiyyatına təsir göstərdi. Bu təsir bu gün də özünü büruzə verməkdədir.

## ƏDƏBİYYAT


1. Millstein G. "Books of the Times", The New York Times, September 5, 1957.
2. Podhoretz N "The Know-Nothing Bohemians", Partisan Review Issues Date: Spring 1958, Vol. 25, No. 2.
3. Douglas B. Jack Kerouac In the Kerouac Archive The Atlantic Monthly, November 1998.
4. Feied F., "No Pie In The Sky: The Hobo As American Cultural Hero in the Works of Jack London, John Dos Passos, and Jack Kerouac", iUniverse, 2001.
5. Charters A. Kerouac: A Biography. San Francisco, Straight Arrow Books, 1973.
6. Cook B. "Beat Generation" Greenwood Pub Group, 1983.
7. Hipkiss R.A. Jack Kerouac: Prophet of a New Romanticism. Lawrence, Kansas, The Regentfe press of Kansas, 1976.
8. Tytell J. Naked Angels: the Literatura and lives of the Beat Generation (Kerouac, Ginsberg, Burroughs) . N.Y., HcGr&V- Hill Book co., 1976.
9. Gifford B. and Lee L. "Jack's Book .An Oral Biography of Jack Kerouac" A&U Canongate, 2012.
10. McNelly D.Desolate Angel: Jack Kerouac, The Beat Generation and America. N.T., Random House, 1979. Ginsberg A. Allen Verbatim Lectures on Poetry, Politics, Consciousness. N.T., McGraw Hill Co., 1974. XV.
11. Rexroth K, "Discordant and Cool" The New York Times, November 29, 1959.
12. https://projektintegracija.pravo.hr/_download/repository/Kuhn_Structure_of_Scientific_Revolutions.pdf
13. Мировая художественная культура. Эпоха Просвещения Текст. / Е.П.Львова, Е.П.Кабкова, Л.М.Некрасова [и др.]. — СПб. [и др.]: Питер, 2008.
14. Чемберлин, Э. Эпоха Возрождения. Быт, религия, культура Текст. / Эрик Чемберлин; [пер. с англ. Е.Ф.Левиной]. М.: Центрполиграф, 2006.


## AMERICAN CRITICISM AND LITERARY STUDIES ABOUT KEROUAC'S CREATIVITY

### SUMMARY


In the present article it is noted that the literary theory and criticism of the work by Jack Kerouac, the leading representative of the "beatnik" generation, has not been observed at all times. Creativity of the writer has always been studied in different contexts, sometimes subjected to severe criticism, and sometimes valued highly enough.

The article concludes that in the works of Jean Kerouac from the point of view of ideological content and poetics, the integrative processes that have arisen in connection with the strengthening of the aesthetic tendencies of the postmodern in the second half of the XX and early XXI centuries are shown. This is primarily due to the fact that the artist's work is based on universal values, is intercultural in nature, ensuring the harmony of American and Western worldview and thinking, while maintaining national identity.

The article analyzes the views of Jack Kerouac on the work of different researchers, and quotes from the works.

It is concluded that since its inception, American literature has been distinguished by democratic traditions and humanism from some other areas of classical literature from Western Europe. However, due to the worldview and lifestyle, some sections of the society before Kerouac allegedly did not attract the attention of representatives of literary and artistic thought; this researcher turned these social problems into his leading characters. J. Kerouac introduced to life the way of life and lifestyle of people that was previously considered insignificant and boring. Thus, he proved that there are a number of trends associated with the moral crisis that society faced, and they are reflected in thinking and lifestyle of this group. Of course, a look at American reality from a similar angle made the writer's work relevant.

**АМЕРИКАНСКАЯ КРИТИКА И ЛИТЕРАТУРОВЕДЕНИЕ**
**О ТВОРЧЕСТВЕ ДЖЕКА КЕРУАКА**

**РЕЗЮМЕ**

В представленной статье отмечается, что литературная теория и критика во все времена творчество ведущего представителя поколения «битников» Джека Керуака не наблюдали. Творчество писателя всегда изучалось в разных контекстах, иногда подвергалось жестокой критике, а иногда ценилось достаточно высоко.

В статье делается вывод, что в произведениях Жана Льюиса Керуака с точки зрения идейного содержания и поэтики показаны интегративные процессы, возникшие в связи с усилением эстетических тенденций постмодерна во второй половине XX и начале XXI веков. Это связано прежде всего с тем, что творчество художника основывается на универсальных ценностях, носит межкультурный характер, обеспечивая гармонию американского и западного миропонимания и мышления, сохраняя при этом национальную идентичность.

В статье анализируются взгляды Джека Керуака на работы разных исследователей, и приводятся цитаты из работ. Делаются выводы о том, что с момента своего зарождения американская литература отличается демократическими традициями и гуманизмом от некоторых других направлений классической литературы Западной Европы. Однако из-за того, что мировосприятие, мировоззрение и образ жизни, некоторых слоёв общества до Керуака якобы не привлекали внимания представителей литературно-художественной мысли, то именно этот исследователь превратил эти социальные проблемы в своих ведущих персонажей. Дж. Керуак привнес в литературу жизненный путь и образ жизни людей, чья жизнь прежде считалась несущественной и неинтересной. Тем самым он доказал, что есть ряд тенденций, связанных с моральным кризисом, с которым столкнулось общество, и они нашли отражение в мышлении и образе жизни этой группы. Конечно, взгляд на американскую реальность с подобного ракурса сделал творчество писателя актуальным.